# ELM, KİTABXANA VƏ CƏMİYYƏTİN MÜASİR DÖVRDƏ QARŞILIQLI ƏLAQƏSİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

***Aynur Yaşar qızı Məmmədli***

*AMEA Mərkəzi Elmi Kitabxana*
*Yasamal rayonu, Hüseyn Cavid pros.129*
*aynurmammadlii96@gmail.com*

***Açar sözlər:*** *elm, kitabxana, cəmiyyət, rəqəmsallaşma, elmi kommunikasiya*
***Keywords:*** *science, library, society, digitalization, scientific, communication*
***Ключевые слова:*** *наука, библиотека, общество, цифровизация, научная коммуникация*

**Xülasə:** Məqalədə müasir dövrdə elm, kitabxana və cəmiyyət arasında formalaşan qarşılıqlı əlaqələrin məzmunu və əhəmiyyəti araşdırılır. Kitabxanaların təkcə informasiya daşıyıcısı deyil, həm də elmi biliklərin cəmiyyətə ötürülməsində fəal iştirak edən sosial institut kimi rolu vurğulanır. Rəqəmsallaşma şəraitində kitabxanaların funksional imkanlarının genişlənməsi, elmi resurslara çıxışın asanlaşdırılması və maarifləndirici fəaliyyətlərin cəmiyyətlə elmin əlaqələrini möhkəmləndirdiyi göstərilir. Nəticə olaraq, "elm–kitabxana–cəmiyyət" münasibətlərinin informasiya cəmiyyətinin əsas strukturlarından biri kimi strateji əhəmiyyət daşıdığı qənaətinə gəlinir.

**Резюме:** В статье рассматривается содержание и значение современных взаимосвязей между наукой, библиотеками и обществом. Подчёркивается, что библиотеки играют роль не только как хранилища информации, но и как активные социальные институты, способствующие распространению научных знаний среди населения. Показано, что в условиях цифровизации расширяются функциональные возможности библиотек, упрощается доступ к научным ресурсам, а просветительская деятельность укрепляет связь между наукой и обществом. Также затрагиваются перспективы развития библиотек в контексте исследовательской поддержки, междисциплинарного сотрудничества и принципов открытой науки. В итоге делается вывод о стратегическом значении отношений «наука–библиотека–общество» как одного из ключевых компонентов информационного общества.

**Summary:** This article explores the nature and significance of the evolving relationship between science, libraries, and society in the context of the modern information age. It highlights the role of libraries not only as repositories of information but also as active social institutions involved in the dissemination of scientific knowledge to the public. The expansion of digital capabilities, improved access to scientific resources, and public educational initiatives are shown to strengthen the connection between science and society. The study also addresses future development prospects for libraries, focusing on research support services, interdisciplinary collaboration, and the implementation of open science principles. It concludes that the "science–library–society" relationship functions as a strategic model and plays a critical role in shaping an inclusive knowledge-based society.

Bu gün informasiya və texnologiyalar sahəsindəki dinamik inkişaf cəmiyyətin bir çox sahələrində, xüsusilə də elmi və təhsil qurumlarında nəzərəçarpacaq dəyişikliklərə səbəb olur. Belə bir şəraitdə kitabxanalar artıq sadəcə informasiya daşıyıcılarının saxlanıldığı yerlər deyil, həm də biliklərin yayılmasına, elmi mübadilənin təşkilinə və cəmiyyətin intellektual potensialının güclənməsinə xidmət edən mühüm mərkəzlər kimi fəaliyyət göstərir [1].

Elm, kitabxana və cəmiyyət arasında qarşılıqlı əlaqə isə daim inkişaf edən bir proses olduğundan cəmiyyətin tərəqqisi elmə əsaslanır, elmin inkişafı isə informasiyaya çıxış imkanlarının keyfiyyəti ilə sıx bağlıdır. Bu səbədən onların cəmiyyətə təsiri diqqətdən kənarda qalmamalıdır. Müasir

kitabxanalar ictimai maarifləndirmə, rəqəmsal savadlılığın artırılması və təhsil imkanlarının genişləndirilməsi sahələrində aktiv fəaliyyət göstərirlər. Elmi fəaliyyət isə yalnız informasiya bazası ilə deyil, həm də informasiyanın cəmiyyətə çatdırılması yolları ilə ölçülür. Kitabxanalar bu baxımdan həm akademik ictimaiyyətin, həm də geniş auditoriyanın informasiya ilə təmin olunmasında körpü rolunu oynayır [3].

Müasir dövrdə kitabxanaların qarşısında duran əsas çağırışlardan biri də rəqəmsal texnologiyaların tətbiqi və innovativ xidmətlərin inkişaf etdirilməsidir. Ənənəvi kitabxana modelləri günümüzün informasiya tələblərinə cavab vermədiyindən, rəqəmsal platformalar və texnoloji həllər vasitəsilə istifadəçilərə daha çevik və əlçatan xidmətlər göstərilir. Elektron resurs bazaları, rəqəmsal kolleksiyalar və multimedia vasitələri bu prosesdə mühüm yer tutur. Bu cür rəqəmsal yeniliklər həm kitabxana materiallarına çıxışı asanlaşdırır, həm də istifadəçi auditoriyasının genişlənməsinə imkan yaradır [2].

Bununla yanaşı, kitabxanalarda interaktiv multimedia və rəqəmsal sərgilərin təşkili müasir dövrdə vacib tendensiyalardan biridir. İnteraktiv sərgilər vasitəsilə istifadəçilərə təkcə informasiyanın təqdimatı deyil, həm də onunla qarşılıqlı əlaqə imkanı yaradılır. Bu xüsusilə gənc istifadəçilərin marağını cəlb etmək baxımından önəmlidir. Məsələn, tarix, coğrafiya və ya texnologiya mövzularında virtual reallıq (VR), artırılmış reallıq (AR) və toxunma ekranlı interaktiv panellər vasitəsilə keçirilən sərgilər maarifləndirmə və informasiyanın mənimsənilməsində effektiv nəticələr verir həmçinin, kitabxanaların mədəni və elmi tədbirlər mərkəzinə çevrilməsini təmin edir [4]. İctimaiyyət üçün açıq olan belə layihələr vasitəsilə elmi-populyar məlumatlar geniş auditoriyaya təqdim olunur və kitabxanaların ictimai nüfuzu artır. Bu da öz növbəsində cəmiyyətin elmi düşüncə tərzinin formalaşmasına və inkişafına töhfə verir.

Ölkəmizdə kitabxanaların inkişaf perspektivləri də məhz bu istiqamətlər üzrə müəyyən olunmalıdır. İlk növbədə kitabxana sisteminin müasir çağırışlara uyğun inkişaf etdirilməsi üçün kompleks yanaşmalar vacibdir. Bu yanaşmalar kitabxana infrastrukturunun texniki və funksional baxımdan yenilənməsi ilə başlamalıdır. Mövcud infrastrukturun beynəlxalq kitabxana standartlarına uyğunlaşdırılması həm informasiya xidmətlərinin keyfiyyətini artıracaq, həm də yerli kitabxanaların qlobal informasiya məkanına inteqrasiyasını asanlaşdıracaqdır. Bu prosesə texnoloji baza ilə yanaşı, idarəetmə və xidmət modellərinin yenilənməsi də daxil edilməlidir.

Bundan başqa, kitabxana fəaliyyətinin dayanıqlılığını təmin edən əsas amillərdən biri də kadr potensialıdır. İstifadəçilərin və xüsusilə kitabxanaçı mütəxəssislərin informasiya və rəqəmsal savadlılıq səviyyəsinin artırılması rəqabət qabiliyyətini müəyyən edən başlıca faktorlardandır. Bu məqsədlə kitabxanalarda mütəmadi olaraq peşəkar inkişaf proqramları, təlimlər, seminarlar və sertifikatlaşdırma kursları təşkil edilməli, beynəlxalq kitabxana şəbəkələri ilə institusional əməkdaşlıqlar genişləndirilməlidir. Bu əməkdaşlıqlar həm elmi məlumatların sərbəst mübadiləsi, həm də qabaqcıl texnologiya və metodologiyaların öyrənilməsi baxımından faydalıdır [5]. Son olaraq qeyd etmək olar ki, yerli kitabxanaların beynəlxalq informasiya sistemlərinə qoşulması onların funksional imkanlarını genişləndirməklə yanaşı, xidmət keyfiyyətinin yüksəlməsinə və elmi informasiya axınının sürətlənməsinə imkan yaradır. Bu isə öz növbəsində, kitabxanaların cəmiyyətdəki strateji rolunu daha da gücləndirir.

Nəticə etibarilə, son dövrdə elm, kitabxana və cəmiyyət arasında əlaqələrin aktuallığı daha da artmışdır. Bu əlaqənin effektiv qurulması innovativ yanaşmaların tətbiqindən, rəqəmsallaşmanın genişlənməsindən və interaktiv texnologiyaların kitabxana fəaliyyətinə daxil edilməsindən birbaşa asılıdır. Belə bir yanaşma təkcə elmi-tədqiqat sahələrində deyil, bütövlükdə cəmiyyətin informasiya təminatında və intellektual inkişafında mühüm strateji əhəmiyyət kəsb edir oynayır.

**Ədəbiyyat**


1. *Əliyev R.* Elm və informasiya cəmiyyətində kitabxanaların rolu. – Bakı: Elm nəşriyyatı, 2020. – 128 s.

2. *Əliyev T.* Rəqəmsal texnologiyalar və elmi informasiyanın transformasiyası. – Bakı: İnformasiya Texnologiyaları, 2022. – 144 s.

3. *Əliyeva S.* Rəqəmsal texnologiyaların kitabxana fəaliyyətinə inteqrasiyası: müasir çağırışlar və perspektivlər // Bakı Dövlət Universiteti Elmi Xəbərlər. Humanitar elmlər seriyası. – 2022. – №1. – S. 88–94.

4. *Həsənli E.* İnteraktiv texnologiyaların kitabxana xidmətlərinə təsiri //Kitabxanaşünaslıq və informasiya elmi.– 2023. – №2. – S. 45–52.

5. *Qasımova G.* Rəqəmsallaşma şəraitində kitabxanaların elmi kommunikasiya funksiyaları //Azərbaycan Milli Kitabxanası Elmi Bülleten. – 2020. – C28, №3. – S. 60–67.